# Qərbi Azərbaycan İcması Şotlandiya parlamentində Azərbaycanla bağlı təqdim olunan sənədi qətiyyətlə pisləyib

**Qərbi Azərbaycan İcması Şotlandiya parlamentinin deputatı Kennet Qibsonun təqdim etdiyi sənədi pisləyib.**



AZƏRTAC xəbər verir ki, icmanın bununla bağlı bəyanatında bildirilir: "Biz Şotlandiya parlamentində deputat Kennet Qibson tərəfindən sentyabrın 20-də təqdim edilmiş sənədi qətiyyətlə pisləyirik.

İlk növbədə vurğulamaq istəyirik ki, etnik təmizləmə və işğal ilə assosiasiya olunan "artsax" termininin sənəddə istifadəsi Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə hörmətsizlikdir.

Sənəddə Qarabağ ermənilərinin Azərbaycanın reinteqrasiya təklifini rədd edib sərbəst şəkildə ölkəni tərk etmələrinin zorla icra olunmuş hərəkət kimi təqdim edilməsinə çalışılır və digər əsassız iddialar irəli sürülür.

Sənədin müəllifi Ermənistandan və işğal olunmuş Azərbaycan torpaqlarından etnik təmizləməyə məruz qalmış bir milyon azərbaycanlının taleyini tamamilə gözardı edir.

Eyni zamanda sənəddə Azərbaycanın işğal altında olmuş ərazilərində Ermənistanın törətdiyi genişmiqyaslı dağıntılar, həmin ərazilərdə Ermənistan tərəfindən 1,5 milyon minanın basdırılması barədə heç bir məlumat verilmir.

Bu sənəd həmçinin Ermənistandan qovulmuş yüz minlərlə azərbaycanlının geri qayıdışına Ermənistanın mane olmasını görməzdən gəlir və onların qayıtmaq hüququnu mənfi şəkildə təqdim etməyə çalışır.

Ermənistanın yüzlərlə məscidi, saysız-hesabsız qəbiristanlığı və azərbaycanlılara məxsus digər mədəni irs nümunələrini məhv etməsi barədə də heç bir məlumat verilmir. Bütün bu məqamlar göstərir ki, bu sənəd münaqişənin beynəlxalq hüquqa uyğun olaraq həllini qəbul etməyən və onu yenidən alovlandırmağa çalışan müəyyən qüvvələr tərəfindən aparılan beynəlxalq kampaniyanın bir hissəsidir.

Biz bu addımı qətiyyətlə pisləyirik və Şotlandiya parlamentinin üzvlərindən bu təxribatı dayandırmağı tələb edirik".

Azərbaycan.- 2024.- 27 sentyabr (№211).- S.13.